# SƏQIFƏ DANIŞIQLARI

<"xml encoding="UTF-8?>

## SƏQIFƏ DANIŞIQLARI

Sə`d ibn Ubadə* xəstə və qızdırmalı halda ənsarın (Ovs və Xəzrəcin) arasında əyləşmişdi, oğlu Qeys onun tərəfindən ənsarın fəziləti və Mühacirlərdən olan üstünlüyü haqda çıxış edirdi. Bu yığıncaqın xəbəri məsciddə Ömər ibn Xəttaba yetişdi.[1] Xəbər gətirənlər Ovs qəbiləsindən olan Mə`n ibn Ədi və Uvəynə ibn Saidə idi. Mə`n Öməri ənsarın yığıncağından agah etmək istəyir, o isə əhəmiyyət vermirdi. Mə`n Ömərin qolundan tutub kənara çəkərək sakitcə məsələni ona başa saldı. Ömər çaş-baş olub Əbu Bəkrin ardınca Peyğəmbərin evinə yollandı. O,Əbu Bəkri məsələdən agah etdi. Əbu Bəkr ənsarın yığıncağını eşitməmişdən qabaq evdən çıxmaq belə istəmirdi. Lakin bu xəbəri eşitdikdə heç kəsə xəbər vermədən Ömərlə birlikdə edən çıxdı.[2] Daha yaxşı olardı ki,Əbu Bəkr Ömərə qoşularaq ora gedib bir də Allahın Rəsulunun dəfnindən sonra .qayıtmağın əvəzinə Allahın Rəsuluna (s) hörmət olaraq onun evə gəlməsini istəyəydi

Onlar yolda Əbu Übeydə ibn Cərrahı* gördülər və birlikdə Səqifəyə yollandılar [3] ənsarın öz tərifində söz deməsini görən Ömər onlarla razılaşmayıb xilafətin Mühacirlərin haqqı olmasını bildirdi. Danışıqlar şiddətləndikdə, Əbu Bəkr irəli gəldi. O, yumşaq dillə Mühacirlərin fəzilətindən söz açdı və sözarası Mədinənin iki böyük qəbiləsi (Ovs və Xəzrəcin) arasında olub və uzun müddət davam edən ixtilafa işarə edərək Mühacirlərə rəy verdi. Bu sözdən sonra ənsardan olan bəzi şəxslər hökumətin müştərək olaraq, mühacir və ənsar arasında idarə olunmasına razılıq verdilər. Lakin Ömər və Əbu Bəkr bu fikrilə razılaşmayıb dedilər: “Bu iş müsəlmanların birliyini pozacaqdır. Əmir bizdən, vəzirsə ənsardan olsun və onlarla məsləhətləşmədən heç bir iş ”!görülməsin

Başçının Qureyş və mühacirlərdən olması razılaşdırıldıqda kimin təyin olunma məsələsi qarşıya çıxdı.Birbirinə təklif etmələr başladı. Nəhayətdə Ömər və Əbu Ubeydə Cərrah Əbu Bəkrlə rəhbər ünvanında beyət etdilər. Bu zaman müvafiq və müxalif sədaları ucaldı. Bununla belə, müxaliflərin səsi heç yana çatmadı. Ömər və Əbu Ubeydədən sonra mühacirlər və ənsardan .olan bəziləri Əbu Bəkrlə beyət etdilər

:Səqifə danışıqlarını üç hissədə xülasə etmək olar

.Əbu Bəkrin çıxışından əvvəl baş vermiş bəhslər (1

.Əbu Bəkrin həlledici çıxışı (2

.Son danışıqlar (3

---

.Əl-kamilu fıt-tarix”, 2-ci cild, səh. 328“ [1]

Ənsabul əşraf" 1-ci cild, səh. 581, hədis 1177, “Tarixül-üməmi vəl-müluk”, 2-ci cild, səh.“ [2] .243

O, Məkkə və Mədinədə qəbir qazıyan və kəfən satan idi. (“Əl-təbəqatul kübra” 3-cü cild, birinci* hissə, səh. 130-131, “Əs-surətun-Nəbəviyyə”, 4-cü cild, səh. 313, “Tarixül-üməmi vəl-müluk”, 3-cü cild, səh. 204, “Əl-bidayətu və əl-nihayə” 5-ci cild, Səh. 266-268. “İmtaul əsma” səh. 548, “Əl-sirətul hələbiyyə” 3-cü cild, səh. 402, “Ənsabul Əşraf”, 1-ci cild, səh. 573, “Əl-qədir”, 5-ci .(cild, səh. 367

Əl- qdul fərid”3-cü cild, səh. 63, “Şərh əhcül-bəlağə” 2-ci cild, səh. 230, “Əl-kamilu“ [3] .fıtarix” 2-ci cild, səh. 328-329